Lalə.Qəhrəman oğullarımızın şücaəti dastanlara sığmayacaq salnamədir : 44 gün - tarixi Zəfər çoxcildliyinin birinci kitabının təqdimatı keçirildi // Mədəniyyət : qəzet. - 2022. - 29 iyun. - № 48. - S. 3.

Mədəniyyət Nazirliyinin tabeliyindəki Respublika Xatirə Kitabı Redaksiyası tərəfindən Vətən müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə "44 gün – tarixi Zəfər" adlı üçcildliyin birinci cildi ("A-Ə" hərfləri üzrə) işıq üzü görüb.

İyunun 24-də Beynəlxalq Muğam Mərkəzində (BMM) nəşrin təqdimat mərasimi keçirildi. Nəşrin birinci cildində Aprel (2016) və Tovuz (2020-ci il, iyul) döyüşlərində, həmçinin Vətən müharibəsində həlak olanlar haqqında ensiklopedik məlumat yer alıb.

Əvvəlcə Vətən müharibəsində həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun misilsiz qəhrəmanlıq göstərərək torpaqlarımızı işğaldan azad etdiyini bildirdi. Respublika Xatirə Kitabı Redaksiyasının ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını xatırladan nazir redaksiyanın fəaliyyətini yüksək qiymətləndirdi. Dedi ki, ümummilli lider şəhidlərin xatirəsini hər zaman əziz tutub, onların adlarının əbədiləşdirilməsi üçün diqqət və qayğısını əsirgəməyib: "Redaksiya tərəfindən indiyədək 20-dən artıq kitab nəşr olunub. Bu kitablarda müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən oğullarının həyat yolu əksini tapıb.

Vurğulandı ki, təqdim olunan kitab 44 günlük Vətən müharibəsində Zəfərimizə həsr edilib: "Azərbaycan bu Zəfəri 30 ildir gözləyirdi. Bu müddət ərzində dövlətimiz də, xalqımız da bu ədalətsizliklə barışmadı. Gün gəldi, Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan Ordusunun, qəhrəman oğullarımızın göstərdikləri şücaət dastanlara sığmayacaq bir salnamədir. Onların Vətən yolunda qəhrəmanlığı Azərbaycan dövləti tərəfindən hər zaman diqqətdə saxlanılır".

Dövlət tərəfindən şəhid ailələrinə göstərilən qayğıdan danışan Anar Kərimov bildirdi ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, nazirliyin mədəniyyət müəssisələrində 100-ə yaxın şəhid ailəsinin üzvü işlə təmin edilib. Qeyd olundu ki, Vətən müharibəsinin qəhrəman şəhidləri sırasında mədəniyyət sahəsində çalışmış 8 nəfər də var: "Onların xatirəsini əbədi yaşadacağıq. Tarixi Qələbəmizi yeni nəsillərin yaddaşına həkk etdirmək bizim borcumuzdur. Nazirlik tərəfindən şəhidlərimizə həsr olunan bir neçə layihə həyata keçirilib. Onlardan biri də "Səhnədən səngərə" layihəsidir. Qələbəmizə həsr edilən filmlərin çəkilməsi,

həmçinin bu mövzuda ədəbi əsərlərin yazılmasının təşviq edilməsi üçün müvafiq addımlar atılır".

İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda dövlətimiz tərəfindən aparılan geniş yenidənqurma və bərpa işlərindən söz açan nazir bildirdi ki, Qarabağa ruhumuzun, milli kimliyimizin qayıdışı da təmin ediləcək: "Xalqımız tarixi yurd yerlərimizə böyük qayıdışın başlanğıcındadır. Bu başlanğıc həm də mədəniyyətlə bağlıdır. Bu dirçəlişdə də xalqımız birləşərək böyük çiçəklənməyə nail olacaq. Bu gün Qarabağda böyük quruculuq işləri reallaşır, bu yolda bizim də üzərimizə böyük məsuliyyət düşür".

Anar Kərimov çıxışının sonunda 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə tədbir iştirakçılarına təbriklərini çatdırdı.

Respublika Xatirə Kitabı Redaksiyasının rəhbəri Nəzakət Məmmədova çıxış edərək fəaliyyətləri haqqında məlumat verdi. Bildirdi ki, redaksiya vaxtilə Azərbaycan Sovet Ensiklopediyası nəzdində bir şöbə kimi fəaliyyət göstərib, ümummilli lider Heydər Əliyevin xüsusi tapşırığı əsasında Nazirlər Kabinetinin imzaladığı 1 may 1997-ci il tarixli qərarla müstəqil quruma çevrilib. 2016-cı ildən Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərir.

Nəzakət Məmmədova diqqətə çatdırdı ki, redaksiya Azərbaycanın Milli Qəhrəmanları haqqında da kitablar nəşr edib, "Vətən daşı və ya 44 günün dastanı" layihəsi çərçivəsində 8 film istehsal edilib.

Çıxışlardan sonra Respublika Xatirə Kitabı Redaksiyasının hazırladığı "Vətən daşı" sənədli filmi nümayiş olundu. Film Şuşanın azad edilməsi uğrunda şəhadətə yüksələn 18 yaşlı əsgər Ömər Rəhimli (Ağcabədi rayonu) haqqındadır.

Ekran işinin nümayişindən sonra şəhidin atası Rəşid Rəhimli çıxış edərək şəhidlərin xatirəsinə göstərilən ehtirama görə minnətdarlığını bildirdi.

Tədbirin bədii hissəsində BMM-in solistləri və "Muğam" televiziya müsabiqəsinin qalibləri Gülzar Fərəcova, Aytən Məhərrəmova və Pərviz Qasımovun ifasında şəhidlərə həsr edilən mahnılar təqdim edildi. Xanəndələri tarda Rövşən Qurbanov, kamançada Ceyhun Muradov müşayiət edirdi. Həmçinin sənətşünaslıq üzrə fəlsəfə doktoru, bədii qiraət ustası Zülfiyyə Eldarqızı vətənpərvərlik mövzusunda, qazi şairlər Həsən Kür, Oğuz Alparslan və Nicat Ağayev isə müəllifləri olduqları şeirləri söylədilər.